Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

Azərbaycan Turizm və Menecment Universiteti

Azərbaycan Turizm və Menecment Universitetində Akademik heyətin işə qəbul meyarları

ATMU-İRŞ-M(AHİQ)-01

BAKI - 2019

Redaktor: Gülgəz Məmmədova

Tərtib edən: Ayan Abbasova

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
13.09.2019	01	Ayan Abbasova	İlkin versiya

"Təsdiq edirəm"

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

_____ İ.İ.Mədətov

Akademik heyətin işə qəbul meyarları

Azərbaycan Turizm və Menecment Universitetində akademik heyətin işə qəbulu müsahibə əsasında keçirilir.

Azərbaycan Respublikasının Təhsil haqqında qanununa əsasən pedaqoji fəaliyyətlə məşğul olmaq üçün müraciət edən şəxs magistr dərəcəsinə malik olmalıdır.

Azərbaycan Turizm və Menecment Universitetində akademik heyət ilk dəfə tədris prosesinə cəlb olunduqda kafedra tərəfindən (tələbələr yaxud kafedranın professor-müəllim heyəti üçün) sınaq dərsi təşkil olunur və dərsi uğurlu qiymətləndirilən müəllim saathesabı qaydada fəaliyyətə başlayır. Saathesabı qaydada işləyən müəllim işlədiyi müddətdə özünü doğrultduqda, açıq dərsləri müvəffəqiyyətlə keçdikdə, kafedra tərəfindən verilən tapşırıqları mütəmadi yerinə yetirdikdə və dərsə davamiyyəti qaydasında olduqda həmin müəllimin kafedranın elmi-pedaqoji heyətinə daxil edilməsi məsələsi müzakirə olunur. Fənlərin tədrisi üçün pedoqoji kadra ehtiyac duyulduqda kafedra və fakültə dekanı tərəfindən Tədris metodiki şöbəyə və Tədris işləri üzrə prorektora təqdimat yazılır, uyğun hesab edildikdə baxılması üçün rektora təqdim olunur. Namizədin uyğunluğu müəyyən olunduqdan sonra sənədləşmənin aparılması üçün İnsan resursları şöbəsinə yönləndirilir.

Müəllim vəzifəsini tutmaq üçün namizədlər aşağıdakı meyarlara cavab verməlidir:

1. Namizədin ixtisası tədrisi nəzərdə tutulan fənnə uyğun olmalıdır.
2. Magistr dərəcəsi olmalıdır.
3. Elmi-pedaqoji stajı minimum 1 (bir) il olmalıdır.
4. Tədris edəcəyi fənn yaxud fənlər üzrə sillabusları olmalıdır.

Müəllimə ehtiyac olduqda təqdim olunan CV-lərə baxılır və ixtisası uyğun olan kadrlar dəvət olunur. Daha sonra fakültə dekanı tərəfindən namizədlərin uyğunluğunun

yoxlanılması üçün profil üzrə, yaxud 3 (üç) müəllimdən ibarət komissiya təşkil olunur. Komissiyanın işinə müəllimlərdən əlavə rəhbərliyin göstərişi əsasında inzibati heyətdən minimum 2 (iki) nəfər daxil ola bilər.

Komissiya işini tamamladıqdan və müvafiq rəy bildirdikdən sonra Fakültə dekanı və kafedra müdiri tərəfindən Tədris metodiki şöbəyə və Tədris işləri üzrə prorektora təqdimat yazılır, uyğun hesab edildikdə baxılması üçün rektora təqdim olunur. Göstəriciləri yüksək qiymətləndirilən namizəd ştat cədvəli üzrə akademik heyətə işə qəbul olunur.